MƏKTƏBLİNİN MASAÜSTÜ KİTABLARI



Məhəmməd Füzuli

# Meyvələrin bəhsi

-919-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı, "KHATT" Nəşriyyatı – 2015



Rəvayət səhralarını gəzən bir səyyah belə bir hekayətdən xəbər vermişdir ki, siması gözəl, idraklı, kamil, hər dili anlayan bir dahi varmış.

Günəş öz şüalarını aləmə yaydığı zaman, o pakürəkli adam, gülşəni və bağı gəzməyə başladı. Bir bağa girib meyvələrə nəzər salanda gördü ki, onların hər biri özünü öyüb fəxr edir.



Alça belə deyirdi:

– Bu dünyada kim mənə bərabər ola bilər? Mən qızdırmaya şəfa verirəm, ağzı acı olana səfa verirəm. Kim məni yesə, başağrısı keçər. Bu fikri həkimlər də təsdiq edirlər.

Elə bu vaxt Alu Alçaya hiddətlə dedi:

– Ey zavallı, heç utanmırsan, belə fəxr edirsən? Sən ki, turş və xoşagəlməzsən. Meyvələr içində sən ən xəstə hesab olunursan. Səni kim yesə, dişi qamaşar, iflic kimi xəstəliyə tutular. Mənə Alu adını təsadüfən qoymamışlar. Mən qulağı sırğalı, qələndər kimi qollu-budaqlıyam, gah yaşıl, gah qırmızı oluram, gah al, gah ağ, gah da zəfəran rənginə boyanıram.





Gilas onun sözünü ağzında qoydu:

– Heç utanmırsan? Niyə özünü belə tərifləyirsən? Kim səni yesə, həzm edə bilməz, gərək üstündən üç dəfə bal yeyə. Amma məni yaradan bədənimə elə gözəl paltar geyindirib ki, heç bir daş-qaş mənə tay ola bilməz. Hər budağım sərv ağacı kimidir. Bütün gözəllər mənə həsəd aparırlar...

Ərik bunu eşidəndə nərə çəkib, dedi:

– Gilasa, bax, a! Gör, nələr danışır?! Ay qarğaya, sığırçına yem olan, nə özünü öyüb fəxr edirsən?! Sən ki bir qətrə su, bir də sümük parçasısan, kim səni yesə, ancaq ziyan görər. Səni bağbanlar qurutsa, iflasa uğrayar.

Mənim adım Ərikdir. Mən gah zümrüd kimi yaşılam, gah da bədənim qızıl kimi parlayır. Bağbanlar məni qurutsalar, bütün karvan əhlinə yem olaram və hər yeməyə qatsalar yarayaram.

Elə ki, alma ərikdən bu sözləri eşitdi, hirsindən cuşa gəlib, dedi:

– Ey qarnı vərəmli, sinəsi yırtıq, ey paltarı tozlu, torpaq dadı verən! Nə özünü öyürsən? Səni kim yesə, qarnı köpər, özü də bəla dənizinə qərq olar.





Amma yaradan mənim adımı Alma qoydu, mənim üzümü qızartdı. Həm də əynimə atlasdan don geydirdi. Heç kəs dünyada məndən qabağa keçə bilməz. Mən nazənin gözəllərin arzusu, istəyiyəm. Hər bir məclis qurulanda, məni meyvələrin tacı edərlər, başqa meyvələrə məhəl qoymazlar.

Alma belə danışıb fəxr edərkən, Armud meydana atılıb dil açdı:

– Ey zəmanənin başına bəla olan! Sən fəxr etməyə layiqsənsə, nədən adını "Alma" qoyublar? Yaxşı olsaydın, sənə "al" deyərdilər də. Mənə isə belə gözəl Armud adı qoymuş, gözəl xasiyyət bəxş etmişlər. Məni yeyənlərə sağlamlıq verirəm. Hər xəstəyə şəfa verirəm, hər kəsə gözəllik, səfa verirəm.

Armud özünü belə təriflərkən nöqsanlarını görə bilmirdi.

Elə bu zaman Üzüm onun səsini eşidib, məğrur gülüşlə Armuda dedi:

– Ey xəstəlikdən rəngi saralan! Başının böyüklüyü gücünün azlığını göstərir. Sən özünü belə təbib adlandırma. Səni ancaq xəstələr yeyir. Əgər səndə təbiblik qabiliyyəti varsa, əvvəlcə öz başına əlac elə! Öz xəstəliyini sağalda bilsən, başqa xəstələrə də şəfa verə bilərsən.





Mənim adım Üzümdür, özümə də cürbəcür xasiyyətlər bəxş edilib. Xəstələrə sağlamlıq verən də mənəm, səbzə, məvic, həm də kişmişəm. Meyvələrin içində ən dadlı mənəm, al şərabı məndən düzəldirlər. Ürəklərə şadlıq və kef verən mənəm. Turşu ilə yanaşı oturan, halva ilə yan-yana qoyulan mənəm.

Heyva bu söhbəti eşidib, hirsindən sapsarı saraldı. Üzümə hiddətlə baxıb dedi:

– Yum ağzını! Dilin qurusun! Sənin işin qəm-kədər yaratmaqdır. Axı, sən kiminlə birləşsən, bir cam meyvə ilə onu fərəhləndirsən, onun şadlığı tez qəmə dönər. Dərdinin üstünə bir dərd də sən qoyarsan. Məni Heyva deyə çağırırlar. Məndə gözəl rəng və ləzzət, şöhrətli ləqəb və ad var. Mənim ətrim bağı-bağçanı bürüyər, məni əzizləyərək tağa-tağçaya düzərlər, məni hər diyara sovqat apararlar. Məni gözəllərə hədiyyə verərlər.

Heyva özünü belə təriflərkən Narınc Heyvaya üz tutub çığırdı:





– Sus! Sus! Heç utanmırsan? Sənin paxıllıq və kindən rəngin saralıbdır, məgər, özündən heç xəbərin yoxdur? Xalq sənə min tənə vurur. Sənin qarnında qurd var, bütün bədənin qurdlara yuva olmuşdur. Mənim isə adım Narınc, əynimdə də belə zinətli paltar. Öz gözəlliyimlə fəxr edirəm.

Narıncın sözünü Turunc kəsib dedi:

– Ey yaramaz! Sən donunla fəxr edirsən? Eşşəyə də yaxşı çul örtsələr, o çulda min naxış və bəzək olsa da, eşşəkliyi yenə də dəyişməz. Mənə Turunc adı veriblər. Mən şahlar təamı üçün şərbətəm, yemişlərin isə padşahıyam. Bağ meyvələrinin adı yazılanda, başda mənəm. Çünki meyvələr içində mən işıqlı çırağam. Nə qədər özümü tərif etsəm yenə azdır, çünki həmişəyaşıl və təzəyəm.

Bu sözləri Nar eşidib, anlayanda, ağzını açıb gülümsəməyə başladı ki, Narınc geyim və rənginə, Turunc da yaşıl və təzəliyinə görə özlərini təriflәyir, odur ki, dedi:

– Bu boşboğazlıq nəyə lazımdır? Əgər hörmət və naz rəngdədirsə, onda kim mənim gülümə çatar?







Mən özümü tərifləməyə ehtiyac görmürəm. Gözəlliyimi təsvir etməyə də meylim yoxdur, çünki mən behişt meyvəsiyəm. Buna görə də mənə Nar deyirlər. Bu dünya meyvələrilə məni müqayisə etmək olmaz, mənim doğulduğum yer cənnət bağıdır. Narınc da, Turunc da mənim nökərlərimdir, Heyva da, Alma da qulluqçularım. Mənim hər danəm bir lələ bənzəyir, bütün cəvahirat ona heyran qalıbdır.

Nar özünü belə təqdim edər-etməz, Xurma ayağa qalxdı və hirslə Nara belə tənə vurdu:

– Ey behişt bağından dəm vuran, mən səndən heç də əskik deyiləm, məni peyğəmbərlər həvəslə yeyirlər, oruc mənimlə açılır. Əcəm və ərəb ölkələrində ən məşhur meyvə mənəm. Misir və Şam ölkələrinə səfər edən mənəm. Məni bütün xalq sevir, buna görə mənə bir çox ləqəb qoyublar: Xəstavr, Zahidi, Müfəttəl, Əşəmi, Müfərcəl mənim ləqəblərimdir. Xoş məclislərdə mən hazıram və hər diyara töhfə aparılıram.





Elə ki, Xurma sözünü qurtardı Badam hiddətlə dilə gəldi və Xurmaya dedi:

– Ey dünya avarası, gah Bağdadlısan, gah İsfahanlı, bütün dünyada bir vətənin yoxdur. Məndə cürbəcür xasiyyət var, onları şərh etməyə dilim gəlmir. Axı, nabat, noğul, halva mənim varlığımla əmələ gəlir.

Püstə bu sözləri eşidəndə Badama belə dedi:

– Ey ağzı həmişə kinindən bağlı qalan, səndə bir zərrə də səxavət yoxdur! Hədsiz dərəcədə xəsissən. Min daş başına dəyməsə, qənnadıya bir dənə pay verməzsən. Mənim adım Püstədir. Qönçə kimi ağzımı açıram, hər məni istəyənə danəmi təhvil verirəm.

Bu sözləri Hülü, Şaftalı, İydə, Şabalıd, Fındıq, İnnab, Tut, Albalı, Əncir, Zoğal, Qoz, Lumu, Gilənar eşidib hər biri başqa cür əfsanə ilə özünün üstünlüyünü sübuta yetirməyə çalışdı...



Azərbaycan Respublikası Pre...
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



O xoşsifətli kişi seyr etmək üçün gəldiyi bağda ləzzət və rahatlığın olmadığını görüb, fikrini dəyişib geri döndü. Evə getmək istərkən yolu bostandan düşdü və burada da eyni iğtişaşı gördükdə, az qaldı bütün dünyadan əl çəksin. Xiyar şükür edərək deyirdi:

– Mən dünyada hazır həkim yarandım. Mən qızdırmanın dərmanıyam, bütün ağrılara şəfa verirəm.

Gərmək Xiyardan bu sözü eşitcək dedi:

– Ey cəfakar! Bu tərif sənə heç yaraşmır, səndə ləzzət deyilən şey yoxdur, dadın camış ətinin dadına bənzəyir. Xəstələrə şəfa, ürəklərə səfa verən mənəm. Hər xörəklə mən uzlaşıram.





Gərmək daha bir neçə əfsanə deyib, susdu. Bu zaman Qarpız cuşa gəldi və nərə çəkib dedi:

– Bu xasiyyətlər, məgər, məndə yoxdur? Mən sinələrə səfa verirəm, gözlərə cila verirəm. Öd kisəsinə, qızdırmaya dava mənəm, başağrısını dərhal aparıram. Dadım ləzzətli, rəngim al-qırmızıdır, suyum isə kövsər suyu kimidir. Bütün naxoşluqları sağaldan, mənəm, mən.

Qarpız hələ də özünü təriflərkən Qovun tab gətirməyib çığırdı. Çünki o, Qarpızı özünə vəzir etmişdi, Gərməyə də vəkillik vəzifəsi tapşırmışdı. Xiyarı özünə qapıçı, Şamamanı da qarşısında qulluqçu təyin etmişdi. O, tez bostançıya əmr edib, onların hamısına cəza verdirdi. Əvvəlcə Xiyarın dərisini soydurdu və əlindən bütün ixtiyarlarını aldı. Gərməyə bir neçə yara vurdurub, cismini parça-parça etdirdi.



Qarpızı dərhal doğratdırdı, Şamamanı bir kənara atdırdı və dedi:

– Mənəm bu bostanda sizin padşahınız, siz mənim pənahımın altındasınız. Şahların məclisində başda mən otururam. Bütün meyvələrin sərkərdəsi mənəm, hər kəs məni yeyib vəfat etsə şəhid hesab olunar. Ətrim də müşk ətrinə bənzəyir...

Beləliklə, Qovun özünü o qədər təriflədi ki, hikkəsindən bağrı çatladı...

Bütün bunları görən o xoşsifətli kişi, bostana da tamaşa etmək istəmədi...

O, başa düşdü ki, bu dünyanın işi nizamsızdır, burada dilxoşluq yoxdur, heç kimsəyə etibar yoxdur. Və yəqin etdi ki, bu köhnə evin vəfası yoxdur, dərdi-qəmi, cəfası isə çoxdur...





Məhəmməd Füzuli (Məhəmməd Süleyman oğlu Füzuli – 1494-1556) – Kərbəla şəhərində anadan olmuş görkəmli Azərbaycan şairi və mütəfəkkiridir.

Məhəmməd Füzuli özündən sonra zəngin ədəbi irs qoyub getmişdir. Onun türkcə, farsca və ərəbcə yazdığı əsərlər heç vaxt öz təravətini itirməmişdir.

Məhəmməd Füzulinin yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindən hesab edilir.

Məhəmməd Füzulinin daha çox maraq doğuran əsərlərindən biri də "Meyvələrin söhbəti"dir. Təqdim olunan bu variant sadələşdirilmiş dili və illüstrasiyaları ilə uşaqların zövqünü oxşayacaq.

Düşünürük ki, bu əsər məktəblinin masaüstü kitabına çevriləcək.





«KHATT» Nəşriyyatının məhsuludur.
ushaqedebiyyati@mail.ru

Layıhənin rəhbəri: **Gülşən Rza Kərim**
Redaktor: **Fatimə Alxaz**
Rəssam: **Ramil Əliyev**
Dizayner: **İlqar Tahiri**
Nəşriyyat direktoru: **Fərhad Abbasəli**

© "KHATT" Nəşriyyatı - 2015

"Qafqaz" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
Bakı, Əcəmi Naxçıvani küç., 3068 məh..
Tel.: (+994 12) 408 61 94
Mob.: (+994 ) 994 41 55
E-mail: qafqaz.neshr@gmail.com